# Bu gün "Tour d'Azerbaidjan-2016" beynəlxalq veloyürüşünə start verilir

Bununla əlaqədar Respublika Velotrekində mətbuat konfransı keçririlib. Tədbirdə veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və yarışın texniki direktoru, Avropa Velosipedçilər Birliyinin fəxri baş katibi Roland Hofer iştirak ediblər.

Mətbuat konfransı başlamazdan əvvəl xarici qonaqlar və jurnalistlər yenidən qurulmuş və genişləndirilmiş Respublika Velotreki ilə tanış olublar. Onlara məlumat verilib ki, Azərbaycanda ilk velosiped treki 1980-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə istifadəyə verilib. O dövrdə ən müasir idman qurğularından biri hesab olunan Respublika Velotrekinin beton örtüyünün perimetri 333,33 metrdir. Azərbaycan Velosiped İdmanı Federasiyası yenidən təşkil olunduqdan sonra velotrekin ərazisində geniş yenidənqurma və abadlıq işləri aparılıb, trekin beton örtüyü əsaslı şəkildə yenidən qurulub, ərazidə müasir tələblərə cavab verən yeni inzibati bina, mini-futbol meydançası, BMX velosipedçilərinin məşq etmələri üçün "Pamp-Park", hər birinin tutumu 150 kubmetr olan 2 su anbarı, qazanxana və s. inşa olunub.



Mətbuat konfransı Azərbaycan Prezidenti İlham Əliyevin ailəsi ilə birlikdə 2015-ci il I Avropa Oyunları ərəfəsində Veloparkda inşa edilmiş yeni BMX stadionu ilə tanış olarkən "Synergy Baku" komandası ilə görüşünü əks etdirən videoçarxla başlandı. Konfrans iştirakçılarının nəzərinə çatdırıldı ki, həmin görüşdə ölkə başçısı "Tour d'Azerbaidjan" beynəlxalq yarışlarını "Eurosport" kanalı vasitəsilə izlədiyini, bu turun Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) təqvimində özünə möhkəm yer tutduğunu, Bakının və bütövlükdə ölkəmizin dünyaya tanıtdırılmasında müstəsna rol oynadığını məmnunluqla vurğulamışdır.

Veloturun Təşkilat Komitəsinin sədri S.Ələkbərov "Tour d'Azerbaidjan-2016" barədə ətraflı məlumat verərək bildirdi ki, bu veloyürüş ölkəmizin beynəlxalq arenada təbliği baxımından mühüm rol oynayır. Təsadüfi deyil ki, "Eurosport" kanalının rəsmi məlumatına görə, keçən il "Tour d'Azerbaidjan" beynəlxalq veloturu barədə videosüjetlər dünyanın 56 ölkəsinin 72 telekanalı vasitəsilə yayımlanarkən 32,7 milyondan çox televizor bu kanallara köklənmişdi.

Builki yarışda 18 ölkədən 21 komanda mübarizə aparacaq. Onlardan da 6-sı peşəkar kontinental, "Synergy Baku" da daxil olmaqla 14-ü kontinental, 1-i isə milli komandadır. Velotur 5 mərhələdən ibarətdir və velospiedçilər 5 gün ərzində Bakı və Sumqayıt şəhərlərinin, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazilərindən keçməklə 790 km-dən çox məsafə qət edəcəklər.

Azərbaycana hər səfərində bir çox müsbət dəyişikliklərin şahidi olduğunu deyən Roland Hofer, ölkəmizdə velosiped idmanının günü-gündən inkişaf etməsindən, yeni idman qurğularının tikilməsindən məmnunluğunu bildirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan 5 mərhələdən ibarət "Tour d'Azerbaidjan-2016" beynəlxalq velosiped turunun əvvəlki illərdə olduğu kimi, bu dəfə də uğurla keçəcəyinə əmin olduğunu deyən Roland Hofer qonaqların Azərbaycandan ən xoş hisslərlə ayrılacaqlarına şübhə etmədiyini vurğuladı.